# C.MƏMMƏDQULUZADƏ DÖVLƏT QURULUŞU VƏ ONUN İDARƏÇİLİK FORMALARI HAQQINDA

**T.K.ZEYNALOVA**
*Bakı Dövlət Universiteti*

Azərbaycan xalqının milli iftixarı olan görkəmli mütəfəkkir C. Məmmədquluzadə yaradıcılığı Azərbaycan siyasi-hüquqi fikrinin, milli – demokratik ənənələrin inkişafında bütöv bir dövr təşkil edir. Mütəfəkkir ictimai həyatın müxtəlif sahələrindən – məişətdən, iqtisadiyyatdan başlayaraq, dövlət quruluşu və idarəetmə məsələlərinə, müxtəlif sosial təbəqələrin hüquqi vəziyyəti, milli münasibətlər, din və dini fanatizm, etika problemlərinə qədər müxtəlif mövzulara toxunmuş, yaradıcılığı azadlıq, demokratiya, tərəqqi ideyalarından bəhrələnmişdir.

C.Məmmədquluzadə XIX əsrin axırı, XX əsrin əvvəllərində Azərbaycan demokratik fikrinin bayraqdarlarından biri idi. Bu dövr Azərbaycanda milli şüurun, milli özünüdərkin təşəkkülü, milli mədəniyyətin inkişafı dövrü idi. Feodalizmdən kapitalizmə keçid dövrü şüurları orta əsrlərə məxsus ehkam və ehkamçı təfəkkür tərzindən xilas etməyi uzun əsrlər boyu şəksiz həqiqət kimi qəbul edilmiş, lakin artıq köhnəlmiş və ictimai tərəqqiyə açıq-aşkar mane olan sosial-mənəvi ənənələr sistemini, stereotipini dəyişdirməyi, ictimai-siyasi dünyagörüşünün ənənəvi prinsiplərinə dövrün tələbi baxımından nəzər salmağı qətiyyətlə tələb edirdi. Belə bir tarixi şəraitdə formalaşan ictimai-siyasi mütərəqqi ideyalar getdikcə daha aydın ümummilli səciyyə alır, öz növbəsində milli şüurun inkişafına, milli birliyin möhkəmlənməsinə xidmət edirdi. Milli dil, tarixi keçmişə maraq, milli ləyaqət hissi, milli özünüdərketmə, xalqın taleyi, cəmiyyətin inkişafı, yeni cəmiyyətin qurulması məsələləri ictimai-siyasi tərəqqinin ən aktual məsələləri kimi qarşıda dururdu.

Bu dövrün mütəfəkkirləri öz əsərlərində dövlət idarəetmə üsulları məsələlərinə böyük maraq göstərmiş, dövlətin mahiyyəti və formaları haqqında mütərəqqi fikirlər söyləmişlər. Dövlət və idarəetmə məsələləri baxımından C.Məmmədquluzadənin irsi mütərəqqi ideyalarla zəngindir. C.Məmmədquluzadənin dövlət haqqında, xüsusilə dövlətin mahiyyəti və formaları, gələcək dövlət quruluşu məsələləri haqqında da maraqlı fikirləri vardır. Mütəfəkkir öz müəllimi hesab etdiyi M.F.Axundovun yolu ilə gedərək dövlətin ilahi mənşəyi, əbədi və dəyişməz olması haqqındakı dini-idealist ehkamların ziddinə olaraq dövlətə ictimai-tarixi bir hadisə kimi baxmışdır.

C.Məmmədquluzadə göstərirdi ki, mütləq monarxiya elə bir dövlət idarəetmə üsuludur ki, orada imperatorlar «nəüzübillah allahlıq iddiası edirlər və onların rəftarı üçün heç bir qanun yoxdur», bu quruluşda xalq bütün hüquqlardan məhrumdur. Bir sıra ölkələrdə mütləq monarxiya «camaatın padşaha güc gəlməsi» nəticəsində aradan götürülmüşdür. «Bir gürcüyə cavab» məqaləsində C.Məmmədquluzadə yazırdı:

«Üç yüz il bundan irəli Firəngistanda... hürriyyət, cümhuriyyət [sözü] danışanın qulaqlarını kəsərdilər. O vədə Firəngistan padşahı XIV Lüdovik həmişə deyərdi: «Hökumət ibarətdir tək mənim vücudumdan» və kimin hünəri var idi irad etsin... Amma elə ki, camaat elm və mərifət vasitəsilə başladı gözünü açmağa, Firəngistan padşahları da yavaş – yavaş təşriflərini apardılar. Odur ki, indi Firəngistan hökumətini məhz camaatın öz vəkilləri idarə edir... İngilis məmləkətində məşrutiyyət fərmanı miladi tarixinin 1215-ci ilində elan olunub və həmin tarixdən 1689-cu ilədək ingilis milləti ilə ingilis padşahlarının mabeyində... burada arasında hürriyyət üstə hədsiz davalar əmələ gəlib, hədsiz qanlar tökülüb, üç dəfə böyük inqilab zühura gəlib və məhz 1689-cu ildə ingilis məşrutiyyəti bərqərar olub» (1, 66-67).

C.Məmmədquluzadə İran şahlığını və Türkiyə sultanlığını çar monarxiyası qədər hiddətlə tənqid edir, mütləq monarxiya idarəçilik formasını qəti surətdə pisləyir, şahların konstitusiya tərəfdarı olması haqqındakı uydurmalarını ifşa edirdi. Onun bu mübarizəsi xalqın cəbhəsindən, onun üsyankar mövqelərindən doğurdu. Mütəfəkkirin şərq istibdadına qarşı çevrilmiş əsərlərində dərin sosial-siyasi məna vardır. İranda, Türkiyədə və digər şərq ölkələrində əsrlər boyu davam etmiş feodal-patriarxal əsarəti, şah və sultan mütləqiyyəti nəticəsində xalqın düçar olduğu zülm və işgəncələr C.Məmmədquluzadəni dövrünün görkəmli ictimai-siyasi xadimi kimi düşündürməyə bilməzdi.

Mütəfəkkirin fikrincə, Şərq ölkələrində Avropa qaydasında konstitusiyalı monarxiya dövlət quruluşuna yalnız müstəbid hökmdarları camaatın gücü ilə yıxdıqdan sonra nail olmaq olar. O, bu barədə «Türkiyə məşrutəsinin keçmişindən» adlı məqaləsində yazır: «Avropa xalqları dövlət quruluşunun tarixini nəzərə aldıqda onda belə bir əqidə yarandı ki, onun həmvətənlərinin xoşbəxtliyi yalnız sultanın ali hakimiyyətinin istibdadını aradan qaldırmaq yolu ilə mümkün olar» (2, 140).

C.Məmmədquluzadə Rusiya burjua-demokratik inqilabının Şərq ölkələrinə xeyirxah təsirini xüsusi qeyd edir, Şərqin müstəbid dövlət başçılarının bu inqilaba mənfi münasibətini tənqid atəşinə tuturdu: «Rusiya inqilabından sonra küreyi-ərzin ən müxtəlif cəhətlərində mütləqiyyətlər bir-bir məşrutiyyəyə münqəlib olmağa başladı. Asiyada İran ölkəsində daraların darati-mütləqiyyətlərinə xatimə (son) çəkilib... Hindistanda... müsəlmanlar hürriyyəti-istiqlallarını tələb etmək üzrədirlər. Afrikanın ötəki başında bunlar... yenidən hürriyyətə nail olub, məclisi-məbusan üsulu ilə idarə olunmağa başlayırlar. Afrikanın bəriki başında Misir əhalisi... məclisi- məbusan güşadını tələb edirlər... Rusiya hürriyyətinin zərbəsinə tab gətirə bilməyiblər. Görünür ki, haman Türkiyədən başqa heç bir yerdə mütləqiyyət payidar olmayır... Bunu Sultan çox gözəl... anladığı üçündür ki, Rusiya duması dağılarkən qurbanlar kəsdirir» (3, 43).

Mütəfəkkir belə bir ideya irəli sürürdü ki, köhnə ictimai quruluş, köhnə dövlət sistemi mövcud olduğu şəraitdə yeni qanunlar hazırlamaq xalqı aldatmaq üçün bir vasitədir, köhnə ictimai quruluşla yeni qanunlar bir araya sığa bilməz. Yeni qanunlar yaratmaq üçün quruluşun özünü dəyişdirmək, yeniləşdirmək lazımdır. C.Məmmədquluzadə qəti fikirdə idi ki, konstitusiyanın qəbul edilməsi, hər hansı bir yeni qanunun verilməsi və ya hökmdarın devrilməsi hələ ictimai-siyasi quruluşun dəyişilməsi demək deyildir. O yazırdı: «Bu gün eşidirəm ki, Məhəmmədəli şah on doqquzuncu dəfə məşrutəni təsdiq etdi; dünən

eşitdim кi, Şeyx Əbdülhəmidi taxtdan endiriblər. Ola bilər кi, sabah da Əmiri Buxara məşrutə eşqinə düşə. Amma bunlar hamısı mənim nəzərimə yamaq кimi bir şey gəlir».

C.Məmmədquluzadə haкimiyyətin dini baxımdan əsaslandırılmasına qarşı çıxır, dövlət haкimiyyətinin allahın iradəsi olduğunu bəyan edən mürtəce ideoloqları tənqid edirdi. Mütəfəккir bütün mütləq haкimlərin, o cümlədən Türкiyə sultanlarının, İran şahlarının, Rusiya çarlarının xalq düşməni olduqlarını çəкinmədən söyləyirdi: «Sultan söhbəti düşəndə... amma biz bunun cavabında həmişə demişiк кi, Sultan Əbdülhəmid – sani Osmanlı məmləкətinin və məmləкətdə yaşayan cəmi millətlərin düşmənidir və Osmanlı taxtına dırmaşıb qalxandan indiyədəк... gecə – gündüz fiкri o yerdə olub кi, məmləкəti məhv eləsin; yəni puça çıxartsın... Osmanlı məmləкətinin parçalanmağına, ülum və maarifin məhv olmağına və indi də İstanbulda qanların axmağına səbəb bir zat olubdur; onun adı – Ədülhəmidxani – sanidir» (1, 249).

C.Məmmədquluzadə İran istibdadının ölкənin və xalqın başına gətirdiyi oyunları qəzəblə ifşa edir, şahın ölкəni Avropa dövlətlərinin talanına verməsini ürəк ağrısı ilə seyr edirdi: «İranı indi biz o halda görürüк кi, borc sahibləri gəlib durublar iranlıların başının üstündə və deyirlər: çıxın buradan, buranı atalarınız bizə satıblar» (1, 450). C.Məmmədquluzadənin monarxiya dövlət quruluşu haqqındaкı fiкirləri eyni dərəcədə çar üsuli–idarəsinə də aid idi. Azərbaycanın bir çox demoкratiк ruhlu ziyalıları кimi C.Məmmədquluzadə də əкsər hallarda çarizmi İran və Türкiyə dövlət quruluşlarını tənqid pərdəsi altında ifşa edirdi. Onun İran və Türкiyə mütləqiyyətinə qarşı mübarizəyə çağırışı həm də Azərbaycan xalqını çarizmə qarşı mübarizəyə çağırış idi.

C.Məmmədquluzadə qəti surətdə əmin idi кi, monarxiya quruluşu süqut etməyincə xalq azadlıq və demoкratiк hüquqlar əldə edə bilməz. Onun fiкrincə, кonstitusiya, demoкratiк respubliкa ictimai inкişafın əsasıdır: «...rus кitablarını oxuya bilməyən müsəlmanlarımız indiyədəк hələ bilməyiblər və eşitməyiblər кi, aya məşrutə nə deməкdir? Nə fars dilində və nə də türк dilində bu barədə bir кitab yazılmayıb... Dünyada məşrutənin bircə mənası var; bunun mənası budur кi, bir məmləкətin millət vəкilləri bir yerə cəm olub təzə qanunlar icad eləyirlər və millət də borclu olur o qanunlardan qədəm кənara qoymasın» (4, 249). Göründüyü кimi, mütəfəккir yalnız кonstitusiya ilə idarə olunan ölкələri azad ölкə hesab edir.

Rusiya imperiyasının xalqları 1917-ci il fevral inqilabını böyüк ümidlərlə qarşıladılar. İnqilabın ilк günlərində yaranmış olan Müvəqqəti höкumət xalqa müraciət edərəк ölкədə demoкratiк azadlıqların həyata кeçirilməsinə, Ümumrusiya Müəssislər Məclisinin çağırılmasına hazırlıq görəcəyinə söz verdi. Fevral inqilabı siyasi partiyaların leqal fəaliyyətinə də imкan yaratdı. Zaqafqaziyanın o zamanкı şəraitində milli partiyalar fəal siyasi mübarizə meydanına atıldılar. Bu dövrdə C. Məmmədquluzadənin ictimai-siyasi və hüquqi görüşlərinin öyrənilməsi belə bir nəticəyə gəlməyə əsas verir кi, o, çarizmin devrilməsini və demoкratiк respubliкa qurulmasını, feodalizm qalıqlarının məhv edilməsini, aqrar və milli məsələlərin həll edilməsini, mədəniyyətin, cəmiyyətin mütərəqqi inкişafının həyata кeçirilməsini nəzərdə tutan inqilabi-demoкratiк proqramın tərəfdarı idi. C. Məmmədquluzadə zülmü, istismarı yox etməк üçün demoкratiк respubliкa quruluşunun zəruriliyini təsdiq edərəк xalq nümayəndələrinin dövləti idarəetmə sisteminə seçilməкlə səciyyələnən demoкratiyanın mənasını izah edirdi:

«... Məşrutə deyilən elə bir şeydir ki, neçə yüz il bundan irəli İngilisdə baş verib, Avropa məmləkətlərini dolana – dolana indi gəlib düşüb biz müsəlmanların içinə... biz də... istəyirik ki, buna sahib olaq» (1, 374).

C.Məmmədquluzadə fevral inqilabından sonrakı dövrdəki yaradıcılığında dövlət quruluşu idealının şərhinə geniş yer vermişdir. Bu cəhətdən onun 1917-ci ildə yazdığı «Cümhuriyyət» məqaləsi diqqəti, xüsusilə cəlb edir. Bu məqalədə C.Məmmədquluzadə ilk növbədə mütləqiyyəti və onun mürtəce hakimiyyətini kəskin tənqid edir, sonra isə yeni cəmiyyətin proqramının izahına, siyasi quruluşun və dövlət idarəsinin şərhinə keçir (5, 252-254). Məqalədə mütəfəkkir respublika quruluşunun qızğın tərəfdarı kimi çıxış edir. Onun fikrincə, bu respublikada köhnə dövlət aparatı və köhnə qanunlar ləğv edilməli, zəhmətkeş xalqa siyasi və hüquqi azadlıqlar verilməli, ölkənin sahibi olan xalq əksəriyyətin iradəsinə uyğun olaraq yeni dövlət aparatı və qanunlar yaradılmalı idi.

«Cümhuriyyət» məqaləsinin hərtərəfli təhlilindən aydın olur ki, C.Məmmədquluzadə məhz xalqın idarə etdiyi respublika ideyasını irəli sürürdü. O, xalqa müraciətlə yazırdı: «Vətəndaşlar! Padşahlıq taxtından yıxılan Nikolayın zalım və xain idarəsi dağılandan sonra Rusiya məmləkətində yaşayan millətləri və o cümlədən də biz müsəlmanları məşğul edən tək bircə məsələdir: həmin məsələ cümhuriyyət məsələsidir» (2, 190).

C.Məmmədquluzadə respublikanın xalq hakimiyyəti olduğunu kütlələrin nəzərinə çatdırır və bu quruluşa dərin rəğbət bəsləyirdi: «Vətəndaşlar! Cümhuriyyət, yəni latınca «Respublika» elə bir hökumətə deyirlər ki, orada məmləkətin idarəsi camaatın öz öhdəsində və ixtiyarındadır, necə ki, məsələn, Firəngistan, İsveçrə və qeyriləri» (2, 191). Lakin bu respublika qədim quldarlıq dövründə mövcud olan respublika üsuli-idarəsindən tamamilə fərqlənir. Xalqa bu quruluşun üstünlüklərini izah etməyə çalışan mütəfəkkir onun tarixinə də toxunur: «...Cümhuriyyət üsuli-idarəsi təzə deyil: qədim yəhudilər, germanlar, yunanlar və rumlar tarixin çox əvail vaxtlarında cumhuriyyət idarəsi ilə yaşayırdılar və lakin həmin qədim zamanlarda bir tərəfdən ağalıq və digər tərəfdən qulluq o dərəcədə idi ki, ədalətin və müsavatın yoxluğundan və ümumiyyətcə millətlərin avamlığı bərəkətindən qədim cumhuriyyət idarələri davam edə bilmədilər. Axirül – əmr nadan məxluqat öz yaxalarını yenə zalim padşahlar ixtiyarına verdilər» (2, 191). C.Məmmədquluzadə bu tarixi ekskurs ilə göstərir ki, ağalıq və köləliyə əsaslanan, ədalət, azadlıq və bərabərliyin mövcud olmadığı cəmiyyətlərdə respublikanın qurulması mümkün deyildir.

Yuxarıda verilən müddəadan göründüyü kimi, C.Məmmədquluzadə demokratiya quruluşunun hələ antik dövrdən məlum olduğunu, sonralar isə inkişaf tapa bilmədiyini söyləyir, onun süqutunda ideoloji amillərin əsas rol oynadığını göstərir.

Mütəfəkkir demokratiya quruluşuna xas olan siyasi azadlıqlardan təşkilat azadlığının əhəmiyyətini xüsusi qeyd edirdi: «... bir məmləkət ki, özünü azad hesab eləyir, orada hər bir firqə özü üçün təşkilat əmələ gətirib, həyatını aşkar surətdə meydana qoyur və bu firqələrin hansı birisi ki, qüvvət tapıb, hökumətə sahib olur, digər firqələri nəinki yox eləmək fikrinə düşmür, bəlkə haman firqələrdən hökumət idarəsinə nümayəndə dəvət edib, məmləkəti koalisiya surətində idarə eləyir» (6, 46).

Respublika idarəetmə üsulunun müsbət cəhətlərini şərh edən mütəfəkkir respublika quruluşunda xalqın sosial-siyasi sahədə hüquq və

azadlıqlarını sadalayaraq, onun təbiətinə görə zülm və istismara zidd olduğunu göstərir. C.Məmmədquluzadə respublika idarəetmə formasının mahiyyətini şərh edir: «Vətəndaşlar!.. cumhuriyyət üsulu mocibincə məmləkətin idarəsi camaatın öz ixtiyarındadır. Camaat dedikdə vətənin sahibidir. Dəxi heç bir kəsin ixtiyarı yoxdur ki, özünə padşah adı qoyub, millətin rəyindən kənar məmləkət işinə qarışsın. Məmləkət müəyyən qanunlar gücü ilə idarə olunur. O qanunları yazan və təsdiq edən millətin məbusları, yəni vəkilləridir» (2, 192).

C.Məmmədquluzadənin ideal hesab etdiyi respublikada fəaliyyət göstərən prezidentlik institutunu xarakterizə edərək göstərirdi ki, prezident xalq tərəfindən ya da ölkənin ali qanunvericilik orqanı tərəfindən seçilən dövlət başçısıdır. İdarəetmə işində ona müavinləri kömək edirlər. Onlar cəmiyyətin və dövlət həyatının mühüm məsələləri, sənayenin, kənd təsərrüfatının, mədəniyyətin inkişafı məsələləri ilə məşğul olurlar. Mütəfəkkir yazırdır: «… Məmləkətin rəisinə «prezident» deyilir. Prezidenti ya millət özü seçir, ya parlaman, yəni millət vəkilləri seçir. Prezident məmləkəti idarə etməyə özünə köməkçi hesabında vəzirlər təyin edir. Cümhuriyyətlərin bəzisində vəzirlər məhz prezidentə tabedirlər; bəzi cümhuriyyətlərdə vəzirlər məclisi – məbusana tabedir. Bəhərhal, xah vəzirlər, xah bunların rəisi hesab olunan prezident millətin yanında cavabdehdirlər…» (2, 192).

Xalq hakimiyyətinin mühüm atributlarından biri olan seçki sistemi də C.Məmmədquluzadənin diqqətindən yayınmamışdır. Onun «qanunların gücü ilə» idarə olunan ideal respublikasında seçki sisteminin əsas şərtləri də xarakterizə edilir. Mütəfəkkirə görə, demokratik respublikanın seçki sisteminin əsas şərtlərindən birincisi sinfi, ictimai, milli və cinsi fərqlərdən asılı olmayaraq, seçkilərin ümumiliyidir: «… yəni məmləkətdə yaşayan nüfuzun cəmisi seçkidə iştirak etməlidir, bilatəfavüti – sinif, cins, din; yəni açığı budur ki, seçkiyə kişilər ilə övrətlər də, erməni də, müsəlman da, xan da və rəiyyət də durmalıdır…» (2, 192).

Mütərəqqi, demokratik seçki sistemini müdafiə edən C.Məmmədquluzadə seçkilərdə seçicilərin səslərinin bərabərliyini müdafiə edərək, bunu seçki qanununun əsas prinsiplərindən biri hesab edirdi. Hər bir seçicinin bir səsi və bərabər hüquqları olmalı idi: «… Bu dörd şərtlərin ikincisi seçkinin müsavi olmağıdır; yəni səslərin bərabərliyi. Məsələn, mən əgər xan və bəyəm, mənim də səsim birdir, sən çoban və rəiyyətsən, sənin də səsin birdir. Demək, hər ikimizin səsi bərabərdir…» (2, 192).

C.Məmmədquluzadə birbaşa seçkiləri mərhələli seçki sisteminə qarşı qoyur və onun üstün cəhətlərini şərh edir: «…Üçüncü şərt seçkinin düzbədüzlüyüdür. Bunun mənası budur ki, bir para seçkilərdə, məsələn, kəndlilər qabaqca vəkilləri seçib göndərirlər şəhərə. Şəhərdə bu vəkillər qarışırlar qeyri şəhərlərin vəkillərinə. Dübarə vəkillər seçib göndərirlər qubernski şəhərə. Belə olanda aşkardır ki, əvvəlinci seçkidə səs verənlər bilməyəcəklər ki, aya axırıncı seçkinin vəkilləri kimin və hansı məbusun seçkilərinə səs verəcəklər. Bəs, bundan yaxşısı budur ki, hər bir kəs əvvəlinci seçkiyə duranda düzbədüz istədiyi məbusa rəy versin…» (2, 192).

C.Məmmədquluzadə qanunverici orqana xalq nümayəndələrinin seçilməsində gizli səsverməni açıq səsvermədən üstün hesab edirdi: «… Dördüncü şərt seçkinin gizli olmağıdır; yəni səs sahibi səsini elə gizlin verə ki, bir kəs xəbərdar olmaya ki, aya, bu kimə rəy verdi. Çünki aşkardır ki, çox adam var ki, utanmağı və ya qorxunu mülahizə edib, ürəyi istədiyi adamı qoyur kənara, istəmədiyinə rəyi verir» (2, 192-193).

C.Məmmədquluzadə respublika quruluşunun əsas və həlledici prinsipini tam azadlıqda görürdü. Onun ideal respublikasında demokratik quruluş nəinki elan edilir, həm də vətəndaşlara vicdan, söz, mətbuat, yığıncaq, ittifaq və təşkilatlar yaratmaq azadlığı da təmin edilir: «Cümhuriyyət idarəsinin bir zinəti də var ki, o da tamam azadlıqdır. Bu azadlıq da neçə qisimdir. Əvvələn, etiqad azadlığı; yəni hər bir fərd keyfi istədiyi dinə sitayiş etməyə, yainki bir dindən əl çəkib, qeyri bir dini qəbul etməyə azaddır. Yoxsa nəinki köhnə və çürük idarənin əsrində, məsələn, islamı tollayıb xaçpərəstliyi qəbul edənə ənam verirdi, amma xaçpərəstin islam dini qəbul etməyə ixtiyarı yox idi.

İkincisi – yığıncaq azadlığı; yəni camaatın bir yerə cəm olmağına heç bir surətdə maneçilik ola bilməz.

Üçüncüsü – birləşmək azadlığıdır.

Dördüncüsü – çap eləmək, beşinci – danışmaq, altıncı – siyasi partiyalar düzəltmək və yeddinci – dilbir olub, həmtədbir olmaqdır.

Budur cümhuriyyətin ən vacib əsasları!» (2, 193).

Dövlətin idarə olunması məsələlərinə toxunarkən C.Məmmədquluzadə dövlət idarələrinin milliləşdirilməsini, dövlət xərclərinin azaldılmasını tələb edirdi. Onun fikrincə, bu yolla qənaət hesabına əldə edilən vəsaiti dövlət maarifin, elmin inkişafına sərf etməlidir. Xalq elmə və maarifə yiyələnərsə, öz inkişafına mane olan əngəlləri tezliklə aradan qaldıra bilər. Xalq tərəfindən seçilən və ölkəni idarə etmək məsuliyyətini öz üzərinə götürən millət vəkilləri məlumatlı və elmli olmalıdırlar.

Beləliklə, C.Məmmədquluzadənin irəli sürdüyü yeni quruluşun proqramını aşağıdakı kimi xarakterizə etmək olar:

- mövcud ictimai-siyasi quruluşun və hüquq sisteminin ləğv edilməsi, onun daha mütərəqqi demokratik quruluş və hüquq sistemi ilə əvəz edilməsi; əmək şəraitinin yaxşılaşdırılması, iş gününün 8 saata endirilməsi, aqrar məsələlərin həlli; dinin dövlətdən ayrılması, xalqın dini buxovlardan azad edilməsi, təhsil və maarifin inkişafı üçün müvafiq şəraitin yaradılması; qadınların siyasi azadlığının, onların ictimai-siyasi həyatda fəal rolunu qanunvericilik yolu ilə təsbit etməsi, milli – müstəmləkə əsarətinin və hüquq bərabərsizliyinin ləğv edilməsi yolu ilə milli məsələlərin demokratik həlli; Rusiya xalqlarına öz müqəddəratını təyin etmək və öz dövlətini yaratmaq hüququnun verilməsi, demokratik seçki sistemi həyata keçirilməli, sinfindən, ictmai vəziyyətindən, mülkiyyətindən asılı olmayaraq seçkilərin ümumi olması, seçkilərdə səslərin bərabərliyi, zəhmətkeşlərə geniş demokratik azadlıqların verilməsi və s. (5, 253-254)

**ƏDƏBİYYAT**


1. Məmmədquluzadə C. Əsərləri, 4 cilddə, II cild. Bakı: 2004.
2. Məmmədquluzadə C. Əsərləri, 4 cilddə, IV cild. Bakı: 2004.
3. Əliyev Y. Böyük yazıçı. Bakı: 1979.
4. Məmmədquluzadə C. Əsərləri, 4 cilddə, II cild. Bakı: 2004.
5. Məmmədquluzadə C. Həyat və yaradıcılığı (K. Məmmədovun redaktorluğu ilə). Bakı: 1974.
6. Məmmədquluzadə C. Əsərləri, 4 cilddə, II cild. Bakı: 2004.
7. Məlikova M., Bayramov E. Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi. Bakı: 1984.
8. Məmmədquluzadə C. Əsərləri. IV cild. Bakı: 2004.
9. Məmmədquluzadə C. Əsərləri, 4 cilddə. III cild. Bakı: 2004.
10. Məmmədquluzadə C. Əsərləri, 4 cilddə. IV cild. Bakı. 2004.

11. Məlikova M., Bayramov E. Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi. (oçerklər) Вакı: 1984.

## ДЖ. МАМЕДКУЛИЗАДЕ О ГОСУДАРСТВЕННОМ УСТРОЙСТВЕ И ФОРМАХ ГОСУДАРСТВЕННОГО ПРАВЛЕНИЯ

**Т.К.ЗЕЙНАЛОВА**

**РЕЗЮМЕ**

В статье освещены воззрения одного из видных представителей демократической политико-правовой идеологии Азербайджана конца XIX - начала XX века Джалила Мамедкулизаде относительно вопросов государственного правления, его форм и будущего государственного устройства. На основе анализа произведений мыслителя раскрывается отношение мыслителя к трем историческим формам правления – абсолютной монархии, конституционной монархии и республике, его неприятие монархии, обосновывается вывод о том, что он был ярым сторонником республиканского устройства.

## J.MAMMADQULUZADEH ON STATE STRUCTURE AND FORMS OF QOVERNMENT SYSTEM

**T.K.ZEYNALOVA**

**SUMMARY**

The article deals with the views on state, porticularly the essence of state, its historical types and forms, future state structure by the proqrressive representative of the end of XIX and the beqinninq of XX century democratic thouqht in Azerbaijan J.Mammadquluzadeh. With the reference to different articles by the author his ideas about 3 forms of qovernment existinq in history: absolute monarchy, constitutional monarchy, and republic are analysed in the article and his beinq aqainst monarchy, but qreat supporter of republican form of qovernment is proved.